vuşdurmağa gücü yetir.

*Damcı pəncərədə sürüşən kimi,*
*sürüşür qəlbimdə bir soyuq kədər.*
*O tanış nəğməni kimdi oxuyan?*
*Deyin oxumasın, mümkünsə əgər.*

*Ya da susdurmayın, qoyun oxusun,*
*Onunçün şirindi bəlkə bu nəğmə.*
*Ürəyim titrəyir yoxdu qorxusu,*
*Yumub gözlərimi dinləyirəm mən.*

Təklik və hüzndən, həsrət və ayrılıqdan boylanan, darıxan, gözləri yol çəkən, küçələri qərib-qərib gəzən şair obrazı... Faiq niyə kədərdən bu qədər məhrəmliklə bəhs edirdi görəsən? Bu şeirlərin canındakı yorğunluğun səbəbi nələr idi? Bəlkə sadə bir kənd uşağı kimi doğulub dünyanın çirkinliklərinə bulaşmamaq acısı, onu irəlidə gözləyən bəxtsiz taleyi duyub ağrımaq, yarım qalmış niyyətlər, paralanmış ümidlər, amma və lakin... diri qalan, heç solmayan arzuların göy qurşağı:

*Güllü köynək kənd uşağı,*
*arzuların göy qurşağı,*
*yüyürərsən, çatammazsan.*

O, qoynunda bəslənərək böyüdüyü nağılların şəhər gerçəkləri önündə çökdüyünü duyurdu. Fəqət "Bitdi nənəmin nağılları" desə də, onun üçün başlanğıc, ana məkan yenə güllü köynəyin saflığı idi. Bir də o saflıqda ehtiva olunmuş arzu və ümidlər...

*Güllü köynək kənd uşağı,*
*köynəyinin güllərinə qurban olum,*
*qoru, qardaş, köynəyinin güllərini.*

Ədəbiyyatda saflıq rəmzi kimi uğurlu detallar var ki, qəhrəmanın içindəki təmiz, çirklənməmiş dünyanı, bütöv harmoniyanı xarakterizə edir, bu rəmz-işarələr insanın içinə dönüşünü gerçəkləşdirmək üçün zəmin rolunu oynayır. Çinar ağacı məsələn... qəribədir ki, bizdə saflığı rəmzləndirən bütün detallar təbiətdən nəşət tapır, onunla hansısa şəkildə əlaqələnə bilir. Faiqin də şeirində "Güllü köynək" məhz, kəndin saf, qatqısız başlanğıcına dayanıqlı amil kimi predmetləşdirilir. Bir də böyük duyğulara, əlçatmaz arzulara doğru qanadlanan kənd uşağının sabaha yaşam həvəsi kimi...

*Güllü köynək kənd uşağı,*
*göydən enib ayağının altındaca*
*xalı olar göy qurşağı*

-yazan Faiq İsmayılov da göy qurşağının kənd uşağının ayağının altına səriləcəyinə inanacaq qədər xəyal gəmisində yırğalanırdı. O gəminin sahilində arzu və ümidlər hələ tükənməmişdi. Ona yetməyin amansızlığı vardı sadəcə, Faiq bu amansızlığı görərək ömrünün nicat sahilinə də elə güllü köynəyində adlamağı düşünürdü. Çünki bu, onun tərtəmiz arzular dövrünün yeganə rəmzi idi. Ki, ordan ancaq insan olaraq zədələnməmiş mənəviyyatla çıxmaq mümkün olardı.

*İnsan özünü bircə dəfə*
*tapır bu dünyada.*
*İnsan özünü iynə kimi*
*salıb itirə də bilər.*
*Əgər özünü tapsan,*
*möhkəm yapış yaxandan.*

Faiq İsmayılov ilk növbədə, bizim poeziyada "dil materialı" kimi uğurlu imzadır. Metafora zənginliyi və qəribəliyi, ayrı-ayrı bədii tapıntılar və obrazlı ifadələr çeşidi Faiqi seçilmişlər, fərdi istedad statusunda təsnif etməyə imkan verir. Amma bu seçilmişliyin dəqiq əlamətləri, xüsusiyyətləri hansıdır? Faiqi ona qədər artıq poeziya zirvələrini fəth edən hansı şairlərin bədii istedadı ilə müqayisə eləmək olar? Bəlkə bu müqayisənin özü yersizdi. Çünki bütün istedadlı şairlər hansısa məqamda təsirə qapılandılarsa, hansısa məqamda kiminsə təsir mənbəyidirlər. Yəni, özüdülər... Bu mənada, Faiqin şeirlərində ahəng, melodiklik, söykəndiyi yaddaş müstəvisi həm poeziyamızın dərin qatlarından süzülüb gəlir, amma həm də ondan kəskin şəkildə ayrılır. Poeziyamızın müxtəlif dönəmlərində çəkilib-qabaran üslub və səs müxtəlifliyi, intonasiya özəllikləri içrə Faiqin yerini görmək olmur nədənsə. Faiqin şeirləri nəsə tamam ayrı bir intonasiya ladında gerçəkləşir. Faiq o şeirləri yazır ki, orada insanı dünyanın müxtəlif qütblərində eyni dildə, eyni tərzdə tanıyıb qəbul edirlər. Bizdə çox şairlər var ki, məsələn, V.Səmədoğlu, Ə.Salahzadə, E.Baxış, İ.İsmayılzadə, V.B.Odər və b. - onların əksər şeirlərindəki poetik siqlətə görə digər vacib komponentləri - texniki nizamı görməzdən gəlmək olur. Axı ortada dupduru bir yaşam, mənəvi vətən ola bilməyin məhrəmliyi var. Ki, oxucu o yaşamda özünün duyğularını, "içində çiçək kimi açan sevgisini", "güzgü kimi çilik-çilik olan ümidlərini" görür. Bu yaşam oxucuya şeirin fəzasında qanad çalmasına bəs edir. Faiqin şeirlərinə yanaşmada isə artıq belə "güzəştə" ehtiyac qalmır. Çünki bu şeirlərdə poetik yaşamın həm də yüksək poetik təqdimatı var, vəznin və ritmin musiqisi şeirdəki duyğunun dərinliyi, onun sirayətedici gücü ilə bir nəfəs alır, eyni dinamika axarında gerçəkləşir.

*İsti oldu ağladım,*
*"Tüstü" oldu ağladım.*
*"Bəsdi" oldu ağladım,*
*bu ki, səbir olmadı.*
*Bir çiçəyə baxırdım, -*
*Bir ürəyə baxırdım.*
*"Öldüm" - deyib yıxıldım,*
*bu ki, qəbir olmadı.*

Faiqin - bu "fağır oğlan"ın dilini çoxları bilməsə də, o, dünyanın dilini zamanından tez başa düşə bildi. Mənəvi saflığı təbiətin bir parçası bilib ona sonadək sadiq qalmağı meyara çevirdi. Göydən bəxtinə yazılan qəzavü-qədərə də elə yağan yaz yağışına olduğu kimi çətir tutmadı:

*Siz Allah, bağlayın o çətirləri,*
*açın başınızı yaz yağışına.*

Sürreal rəsm tablosuna sığdırılan mənanı öz kiçik şeirlərinin bətninə yığıb: "Bu dünyanın istisiylə soyuğu/öpüşən yerdən/küləyi başlayır...", - kimi misralarla təkcə təbiətin yox, poeziyanın hadisəsini yaratdı Faiq İsmayılov.

* * *

Daha çox yarada bilərdi. Nələr yarada biləcəyini, içindəki sənət eşqini güman etmək üçün aşağıdakı misralarına nəzər yetirmək kifayətdi:

*Çiçəklər çoxdan solub,*
*amma çiçək ətri var*
*bütün duyğularımda.*

Faiqin tale yolunu da bu şeir parçası daha yaxşı rəmzləndirir. Ömür yarıda qırılıb çiçək kimi solsa da, duyğularının çiçək ətri onu qoxlayanları öz sehrinə salmaqda davam edir. Və müəllifinin poeziya üfüqlərində əbədi uçuşuna inandırır...

**Ədəbiyyat qəzeti.- 2017- ci il.- 11 fevral.- S. 21.**